UOT821.512.162

**Rəxşəndə Kərimova**
*kiçik elmi işçi,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
ms.rxsnd@mail.ru

# ƏBU HAMİD QƏZALİNİN "CƏVAHİRÜL-QURAN" ƏSƏRİNİN AZƏRBAYCAN ƏLYAZMA NÜSXƏLƏRİ BARƏDƏ

**Açar sözlər:***Qəzali, İslam, Quran, təfsir, əlyazma*
**Ключевые слова:***Газали, Ислам, Коран, тафсир(толкование Корана), рукопись*
**Key words:** *Ghazali, İslam, Quran, tafsir(interpretation of the Quran), manuscript*

Müsəlman xalqlarının qədimliyi və zənginliyi ilə seçilən mədəniyyəti əsasən əlyazmalar vasitəsilə günümüzə gəlib çatmışdır. Əlyazma nüsxələri ən dəyərli miras olaraq tarixin sənədli yaddaşı kimi bütün elm sahələrində qazanılan məlumatları zəngin bir xəzinə kimi özündə toplayır. Əlyazma kitabları öz əhəmiyyətinə görə daha dəyərli hesab edilərək əsasən orta əsr elm və mədəniyyətinin müxtəlif sahələrini: fəlsəfə, riyaziyyat, təbabət, ədəbiyyat, astronomiya, eləcə də İslam dininin təfsir, fiqh (hüquq), kəlam, əxlaq, təsəvvüf və s. elm sahələrini əhatə edir. Təfsir sahəsinə aid olan belə dəyərli əlyazma nüsxələrindən biri də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan məşhur teoloq, filosof və şafii fiqh alimi Əbu Hamid Məhəmməd bin Məhəmməd bin Məhəmməd bin Əhməd əl-Qəzali ət-Tusinin "Cəvahirül-Quran va durərəhu" əsəridir.

İslam elm aləminin ən güclü şəxsiyyəti Huccətül islam (İslamın dəlili, sübutu) adı verilən Əbu Hamid əl-Qəzali ət-Tusi h.450/m.1058-ci ildə İranın Xorasan bölgəsində yerləşən, yetişdirdiyi alimlər və dövlət başçıları ilə tanınan Tus şəhərində (indiki Məşhəd) anadan olub. Orta əsr Qərb skolastikasında Abuhamet, Alqazeladıyla şöhrət tapmışdır. Tusi ləqəbi ilə də tanınan alimin ən məşhur nisbəsi Qəzalidir. Qəzali yaxud Qəzzali? Yazılışları eyni olan bu ləqəblərin hansının doğru olduğu məsələsi qədim qaynaqlarda və müasir mənbələrdə araşdırılmış, lakin ortaq bir fikrə gəlməmişlər. Məşhur hədis hafizi Osman əz-Zəhəbin (öl.h.748/m.1348)qeyd etdiyinə əsasən Qəzalı bu haqda demişdir: "İnsanlar məni qoşa "z" ilə yəni Qəzzali deyə çagirirlar. Halbuki mən Qəzalə adlanankənddə doğulmuşamvə bu ləqəbi ordan götürmüşəm". Buna bənzər açıqlamani onun qızlarından biri də söyləmişdir (Sufi şeyxi Şeyx Nəcməddin Kubraya (öl.h.1221/m.1806) istinad edilir) [1, s.489].

Qəzali h.465/m.1073-ci ildə Əhməd b.Məhəmməd ər-Razqanidən fiqh dərsi almış, sonra təhsilini Curcanda davam etmişdir. Öz elmi imkanina güvənən böyük islam alimi h.473/m.1080-ci ildə bir qrup Tuslu gənclə Nişapura gedərək, burada yerləşən Nizamiyyə Mədrəsəsində dövrünün ən tanınmış kəlam alimi İmam Harimeyn əl-Cuveynin (öl.h.478/m.1085) tələbəsi olma imkanını əldə etmişdir. Lakin onu qeyd etmək lazimdir ki, qaynaqların bildirdiyinə görə, üstün zəkaya, hafizəyə malik olan Qəzali Nizamiyyə Mədrəsəsinə getməzdən əvvəl fiqh, hədis, əqaid və s. elm sahələrində tam püxtələnmiş və 12 illik təhsil almişdır. Burada bu sahədə olan elmlərin öyrənilməsini davam etmişdir [1, s.490].

İslam tarixində müstəsna rol oynamiş Əbu Hamid Qəzali saysız-hesabsız tələbə yetişdirmiş və üç yüzə yaxın seçilmiş tələbəsinə mənimsəmsədiyi bütün elmləri öyrətmişdir. Tələbələri arasında Məhəmməd ibn Əsəd ət-Tusi, Əbu Mənsur Məhəmməd, Əbu Abdullah Cumərt əl-Hüseyni, Əbul-Həsən əl-Bələnsi eləcə də, hənbəli alimləri Əbul-Vəfa ibn Aqil, Əbul-Xəttab əl-Qəlvəzani kimi bir çox islam alimi də var. H.505/ m.1111-ci

ildə 55 yaşında vəfat edən dahi şəxsiyyət Tusda məşhur şair Firdovsinin məzarının yaxınlığında dəfn edilmişdir [1, s.491,494].

Əbu Hamid Qəzalinin, dərin ensiklopedik elmi haqqında dövrün görkəmli alim və mütəfəkkirləri yüksək fikirdə olmuşdular. "Qəzali dərin bir dənizdir"- Bu sözləri onun haqqinda müəllimi İmam Harimeyn əl Guveyni demişdir. Görkəmli tarixçi Əbul Fərəc İbnul Cəvzinin (öl.h.1201/m.1787)bildirdiyinə görə, o, mədrəsədə oxuduğu illərdə fiqhə aid "əl-Mənhul" adlı kitab yazmışdir. Bu kitabı araşdıran Cuveyni əsəri çox bəyəndiyini söyləmiş, hətta belə bir ifadə işlətmişdir: "Məni sağ ikən qəbrə qoydun, ölümümü gözləyə bilməzdin"! Müasiri Əbdulqafir Farisinin sözlərinə görə, din alimlərinin imamı, üstün zəkaya, danişığa malik və təbiət etibarilə bənzəri olmayan bu şəxsiyyət təhsil aldiği vaxtlarda bütün dostlarini geridə qoymuş, hətta öz müəlliminə belə dərslərdə yardim etmişdir [1, s.490].

Pedaqoqika ilə məşğul olan, eyni zamanda dəyərli kitablar yazan İmam Qəzali yiyələndiyi üstün elmlərlə dövrünün avropalı filosoflarını hər cəhətdən geridə qoyurdu. Avropada Yerin müstəvi formasında olduğu zənn edilərkən, Qəzali Yerin kürə formasında olduğunu, qaraciyərdə qanın zəhər və mikroblardan təmizlənib təzələndiyini, öd və limfa sistemi ilə zərərli maddələrin burada qandan ayrıldığını və bütün bu proseslərdə dalaq, böyrək və öd kisəsinin rolunu, qandakı maddələrin miqdarının dəyişməsi ilə orqanizmin zərər görməsi barədə ətraflı məlumatları bugünkü fiziologiya kitablarındakı kimi dəlillərlə açıqlayırdı [2].

Əbu Hamid yaşadığı dövrdə üstün əxlaqı ilə diqqət çəkmiş, müxtəlif elm sahələrində yüksək biliyə sahib olması və güclü mühakimə qabiliyyəti ilə təkcə islam aləmində deyil, Qərbdə də tanınmışdır. Məhəmməd Qəzalinin əsərləri ilə bağlı avropalı alimlər uzunmüddətli dərin təhlillər aparmışlar. Bunlardan P. Bouyges "Essaie de chronologie des Oeuvres de al-Ghazali" (Qəzalinin əsərlərinin xronologiyası) adlı kitabında alimin 404 kitabının adını yazır. Məşhur şərqşünasCarl Brokelman isə "Geschichte Der Arabischen Literatur " (Ərəb ədəbiyyatının tarixi) adlı əsərində Məhəmməd Qəzalinin 75 əsərinin siyahısını açıqlamışdır. 1959-cu ildə dörd alman professoru İmam Qəzalinin kitablarını oxuyaraq İslam dinini dərindən dərk etmiş və bu dini qəbul etmişlər. Qəzalinin kitabları alman dilinə tərcümə olunmuşdur [3, s.291].

Alim əsərlərinin sayının 1000-ə çatdığını "Məuvduatul-ulum" adlı kitabında bildirmişdir Bunlardan 400-nün adı Şeyx Əbu İshaq Şirazinin (öl.h.476/m.1083) "Hazain" kitabında yazılmışdır. Əsərləri hər yaş və səviyyədən olan insanın asanlıqla dərk edəcəyi üslubda yazmış, İslam dininin müxtəlif elm sahələri ilə əlaqəsini qeyd etmişdir [3, s.290] .

Qəzalinin vəfatindan sonra islam dünyasının üzləşdiyi Monqol əsarəti zamanında yandırılan minlərlə kitabxana içində onun çox sayda əsərləri də məhv edilmişdir. Bu səbəbdən elm dünyası bu günə qədər onun əsərlərinin tam bir siyahısını tərtib etməmişdir [3, s.290] .

Müəllifin məşhur əsərləri bunlardır: Təsəvvüf-əxlaq sahəsində yazılanəsərləri: "İhyau-ulumid-din", "Kimyaüs-səadə", "Cəvahirül-Quran", "əl-Ərbain fi usulid-din", "Mizanül-əməl","Minhacül-abidin", "əl-Məqsədü-l əsna fi şərhi əsmaül husna", "Bidayətül-hidayə", Fəlsəfəyə aid əsərləri:"Təhafütül-fəlasifə", "Məqasidül-fəlasifə",Kəlam sahəsində yazılan əsərləri: "əl-İqdisad fil-itiqad", "Fədaihul-batiniyyə","Durrətül-fahirə","Qəvaidül-əqaid" və s. Məntiq, fiqh, təfsir və başqa elm sahələrində yazılan əsərləri: "Lübabün-nazar","Mizanül-əməl", "Qistəsül-müstəqim", "əd-Durcül-mərkum bil-cədavil" "əl-Mədnun bihi alə ğayri əhlih", "əl-Məqasid fi bəyani itiqadi-l əvail", "əl-Xülasə" ,"Futuhül-Quran", "Xəvasül-Quran", "Nəvadirül-əxbar" [1, s.520- 524]; [4, s.3277] [5, s.395].

Qəzalinin yuxarıda qeyd olunan əsərlərindən başqa bəzi mənbələrdə günümüzə qədər məlum olan 150-dən çox əsəri qeyd olunub [6, s.3184-3198,№8392].

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Məhəmməd Qəzalinin məşhur əsərlərindən biri olan "Cəvahirül-Quran va durərəhu" əsərinin dörd əlyazma nüsxəsi qorunub saxlanılır. Azərbaycandan başqa Qəzalinin bu əsəri dünyanın bir çox muzey və əlyazma fondlarında da mühafizə olunmaqdadır [7. s.58,59№ 74].

Elmi təfsir cərəyanı Quranda müxtəlif elmlərə, kəşf və icadlara işarə olunduğu fikrindən meydana çıxmışdır. Mənbələrin bildirdiyinə görə, elmi təfsir dirayət təfsirinin yaranışı ilə ortaya çıxmışdır ki, bu da daha çox Abbasilər dövrünə təsadüf edir. Elmi təfsiri sistemli olaraq ilk dəfə ələ alan əl-Qəzali olmuşdur. O bu sahədə "Cəvahirül-Quran va durərəhu" adlı əsər qələmə almışdır [8, s.203].

"Cəvahirül-Quran va durərəhu" Qurani-kərimin xüsusiyyətlərini, incəliklərini və sirlərini açıqlamağı qarşıya məqsəd qoyan bir əsərdir. Qəzali Quranda Allahın mövcud olmasına dair 500-ə qədər ayəni toplayaraq bu əsərdə qeyd etmişdir. Alim "Əl-Məqsədu-l əsna"da tətbiq etdiklərini "Cəvahirül-Quran va durərəhu"da davam etmişdir [1, s.523]. Hər dörd əlyazmanın əvvəlində əsərin 3 hissədən ibarət olduğu yazılıb. I hissə "Müqəddimə", "Səvabiq" (Giriş), II hissə "Məqasid" (Məqsədlər) və III hissə "Ləvahiq" (Əlavə) adlanır.

On doqquzbaşlıqdan ibarət olan birinci bölümdə alim Quranın çox dəyərli xəzinələri saxlayan bir okean olduğunu vurğalayaraq, bu okeandan çıxan dini və dindən kənar elmləri yüksək dəyərləndirmişdir. Həmçinin əl-Fatihə, Ayətul-Kürsü (əl-Bəqərə surəsinin 255-ci ayəsi), əl-İxlas, Yasin kimi surə və ayələrinin burada geniş izahı yer alır.

İkinci bölümdə imanın təməlinin elm və əməl oldugu qeyd olunub. Quran ayələrinin elmlə bagli olanlarını müxtəlif surələrdən seçərək 763 ayə şərhsiz olaraq, əməllə bagli olanlar isə müxtəlif surələrdən 741 ayə seçilərək sıralanmışdır.

Müəllif ön sözdə III bölüm olan "əl-Ərbəinə fi usulid-din"nin məzmununa dair ətraflı məlumat vermiş, lakin bu hissə "Cəvahirül-Quran" da yer almamışdır. Qəzalinin əsərlərini araşdırarkən məşhur təfsirçi Məhəmməd Mürtaza əl-Zəbidinin (öl.h.1205/m.1791) "əl-Ərbəinə fi usuli-din" ilə bağlı etdiyi qeyddən məlum olub ki, bu əsər "Cəvahirül-Quran"ın bir bölümüdür, lakin müəllif eyni ad altında ayrıca kitab yazmışdır.

B-708 şifrli "Cəvahirül-Quran va durərəhu" və "Əl-Ərbəinə fi usulid-din məcmuədir." Əlyazma məcmuəsinin birinci əsəri "جواهر القران ودرره" "Cəvahirül-Quran va durərəhu" adı altinda saxlanılır [9, v.1b-41a]. Noxudu rəngli yarı ahərli, nazik Avropa kağızına qara mürəkkəblə səliqəli nəsx xətti ilə köçürülüb. 1b vərəqində "فصل" [fəsl] sözü iri və qalın qara mürəkkəblə, digər vərəqlərdə isə divani xətti ilə yazılıb. Qisimlərin sayı , həmçinin " ثم "، [summə]، " و " [va]"احدها " [əhədəhə ]sözləri qara, qırmızı və yaşıl rəngli mürəkkəblə bir qədər iri şriftlə köçürülüb. Şərq üsulu ilə səhifələnib. Mətnin haşiyələrində müxtəlif istiqamətlərdə yazılmış qeydlər var. V.1b-də başlayan əsər v. 41a-da bitir. Əsərin sonu naqis olduğundan katibini və yazılma tarixini müəyyənləşdirmək mümkün olmadı.

Məcmuənin ikinci əsəri "كتاب الاربعين فى اصول الدين""Kitabu əl-ərbəinə fi usulid-din" adı altinda saxlanılır [9, v.44b-238a]. 44b vərəqindən başlanan əsər noxudu rəngli, yuxarı hissələri nəmişlikdən ləkələnən Avropa kağızına səliqəli nəsx xətti ilə köçürülüb. "فصل" [fəsl] sözü divani xətti ilə yazılıb. Qisimlərin sayı qırmızı və yaşıl mürəkkəblə iri hərflərlə yazılıb. Mətnin haşiyələrində və sətirlərin arsinda yazılmış qeydlər var. Şərq üsulu ilə səhifələnib. Orta əsr mətnşünaslığına aid olan şərti işarələrdən istifadə edilib. Əsər 238a vərəqində bitir. Sonda kalafonun içərisində müəllifin, katibin adı və əsərin yazılma tarixi qeyd olunub. Əsər katib Əbdül Cəlil Molla Hacı Ömər bin Məhəmməd bin Hacı tərəfindən h.1113/m.1701-ci ildə mübarək şaban ayında köçürülüb. Kitabın cildi tünd qəhvəyi rəngli dəridir. Ölçüsü 16,5x20 sm-dir, həcmi isə 245 vərəqdir.

Növbəti "جواهر القران ودرره" "Cəvahirül-Quran va durərəhu" əlyazma nüsxəsi C-362 şifrəsi altında mühafizə olunur [10, v.4b-219a]. Əvvəli naqis olan əsər 219a vərəqində

bitir. Mətn peşəkar katib tərəfindən qalın, tünd noxudu rəngli Avropa kağızına səliqəli nəsx xəttilə köçürülüb. "فصل " [fəsl] sözü divani xətti ilə yazılıb. Haşiyələrdə və sətirlər arasında olan qeydlər qara rəngdədir. Orta əsr mətnşünaslığına aid olan şərti işarələrin yazılmasında qara mürəkkəbdən istifadə edilib. Şərq üsulu ilə səhifələnib. Mətnin hissələri, eləcə də, "، و" [va] "أحدها"، [əhədəhə] "الاصل" ، [əl-əsl] "الأقز "، [əl-əqz]["اعلاها" ، əaləhə""الحالت] [əl-halət] sözləri iri, qalın qara mürəkkəblə yazılıb. KatibMəhəmməd binMəhəmməd tərəfindən köçürülən əlyazma nüsxəsinin qabaq hissəsinin cildi yoxdur, arxa cildi isə kartondur. Ölçüsü 20x27,5 sm-dir, həcmi isə 220 vərəqdir.

B-8023 şifrli əlyazmanın birinci səhifəsində əsərin adı " جواهر القران ""Cəvahirül-Quran" böyük hərflərlə yazılıb. [11,v.1b.] .Mətn nəmişlikdən ləkələnmiş tünd noxudu rəngli Avropa kağızına nəsx xəttilə köçürülüb. فصل"" [fəsl] qirmızı صلى " " الله عليه و السلام [sələllahu əleyhi vəs-səlləm] sözləri qara mürəkkəblə divani xətti ilə yazılıb. Əsərdə bəzi sözlərin üstündən qırmızı mürəkkəblə xətt çəkilib. Haşiyələrdə olan qeydlərdə qırmızı, sətirlər arasında olan qeydlərdə isə qara mürəkkəbdən istifadə edilib. Qisimlər qırmızı mürəkkəblə iri şriftlə verilib. Mətn 1b-195a vərəqlərini əhatə edir. Əlyazma nüsxəsinin orta hissəsi və əsərin son vərəqlərinin yarı hissəsi nəm çəkərək çürüdüyündən əsər sonradan bərpa olunub. Bu səbəbdən əsərin katibini və yazılma tarixini müəyyənləşdirmək mümkün olmadı. Tünd göy rəngli cildin üzərində bir böyük və iki kiçik basma medalyon var. Ölçüsü 16x21,5 sm-dir, həcmi isə 195 vərəqdir.

"جواهر القران ودرره"“Cəvahirül-Quran va durərəhu” əsərinin digər nüsxəsi B-3631şifrli əlyazma məcmuəsinin 1b-207a vərəqlərini əhatə edir [12,v.1b-207a]. Əsər tünd noxudu rəngli Avropa kağızğına, səliqəli nəsx xətti ilə qara mürəkkəblə köçürülüb. 1b vərəqində "و"[va] yaşıl və qara mürəkkəblə, 2a vərəqində "و " [va] yaşıl mürəkkəblə nisbətən iri şriftlə yazılıb. "فصل"[fəsl] ,""صلى الله عليه و السلام [sallahu aleyhi vas səlləm] və s. sözlər divani xətti ilə yazılıb. Qisimlər qırmızı, yaşıl rəngli mürəkkəblə və iri şriftlə yazılıb. Haşiyələrdə və sətirlər arasında olan qeydlər qara, qırmızı və yaşıl rəngdədir. Şərq üsulu ilə səhifələnib. Mətnşünaslığa aid şərti işarələrdə qara və qırmızı mürəkkəbdən istifadə edilib. Cildi tünd qəhvəyi rəngli dəridir. Hər iki üzündə qoşabənd, zəncirək və ortasında həndəsi xətlərlə kəsişən şəmsə var. Ölçüsü 17x22 sm, həcmi isə 245 vərəqdir.

İmam Qəzalinin Əlyazmalar İnstitutunda “Cəvahirül-Quran va durərəhu” əsərindən başqa ərəb dilində 50-dən çox, fars dilində isə “Kimyaüs-səadə”, “Fusulu min kəlamil-Qəzali” əsərlərinin əlyazma nüsxələri mühafizə edilməkdədir. Bunlardan başqa İnstitutda Məhəmməd Qəzalinin on beş ərəb dilində əski çap kitabı, fars dilində “Kimyaüs-səadə” daşbasma kitabı, türk dilində isə “Tərcümeyi eyyühəl-vələd” əski çap kitabı qorunmaqdadır.

Yekun olaraq qeyd etmək lazımdır ki, öz dövrünün qiymətli yadigarı olan bu yazılı abidələr müasir dövrdə də öz aktuallığını itirməmişdir. Məhəmməd Qəzalinin “Cəvahirül-Quran va durərəhu” əsərinin əlyazma nüsxələri ilə dünya əlyazma xəzinələrində və kitabxanalarında saxlanılan digər nüsxələrinin müqayisəli-poleoqrafiq təhlili islam aləmində bu sahədə bir çox elmi tədqiqatların aparılmasına və yeniliklərin aşkarlanmasına səbəb ola bilər.

## Ədəbiyyat:

1. Türkiye Diyanet Vakfi. İslam Ansiklopedisi. C.13. - İstanbul,1996. - 555 s.
2. http://m.adnanoktar.az/tr
3. İslam alimləri ansiklopedisi. C.6. – 382s.
4. Sami Ş. Qamusul-əlam. C.5. - İstanbul, 1314.- 4000 s.
5. Dehxoda Ə. Ə. Lüğətname. C.2. -Tehran, 1325.- 502s.
6. Karabulut A.R.- Karabulut A.T. Dünya kütüphanelerinde mevcut islam kültür

tarihi ile ilgili eserler ansiklopedisi. C.5. 3050-4069s.
7. Каталог арабских рукописей Института рукописей им. К.С.Кекелидзе. - Тбилиси, 2002. - 586 с. (Коллекция L-Выпуск II).
8. http://elibrary.bsu.az/books_460/N_359.pdf s. s.236.
9. Qəzali Məhəmməd.Cəvahirül-Quranva durərəhu, Kitabul- ərbəinə fi usulid-din. Əlyazma məcmuəsi / AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. H.1113/m.1701. – 245v.
10. Qəzali Məhəmməd.Cəvahirül-Quranva durərəhu /AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.- 220v.
11.Qəzali Məhəmməd.Cəvahirül-Quranva durərəhu /AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. - 195v.
12. Qəzali Məhəmməd. Cəvahirül-Quranva durərəhu. Əlyazmalar məcmuəsi / AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.- 245v.

***Рахшанда Керимова***

## ОБ АЗЕРБАЙДЖАНСКИХ ЭКЗЕМПЛЯРАХРУКОПИСИ ПРОИЗВЕДЕНИЯ «ДЖАВАХИРУЛ-КОРАН» АБУ ХАМИДА ГАЗАЛИ

**Резюме**

В Институте рукописей имени Мухаммеда Физули НАН Азербайджана хранятся рукописные произведения по разным отраслям средневековой науки и культуры, в том числе, в области тафсир, калам, таджвид и др. исламской религии. В статье рассматриваются хранящиеся в институте четыре экземпляра рукописи значимого произведения в области тафсир «Джавахирул-Коран ва дурараху» Абу Хамид ал-Газали. Ал-Газали - великий исламский ученый, посвятивший свою жизнь разъяснениям целомудрия и красоты Ислама, а также норм морали, установленных Кораном. Его произведение «Джавахирул-Коран ва дурараху» - это произведение, в котором поставлена цель раскрыть особенности, тонкость и тайны Корана.

***Rakhshanda Karimova***

## ABOUT THEABU HAMİD AL-GHAZALİ “JAWAHIR-AL QUR'AN” WORK THE AZERBAIJAN MANUSCRIPT (HANDWRITTEN) COPIES

**Summary**

The many works, manuscript copies are protected by the ANAS, İnstitute of Manuscript named after Muhammad Fizuli of medieval science and culture in various areas, including İslamic religion, tafsir (interpretation of theQur'an), kalam (saying), tecvid (Quran studies), etc. and other related areas. There are four copies remain protected in the field of tafsir (interpretation of the Qur'an) as the valuable manuscripts from Abu Hamid Ghazali “Jawahir-al Qur'an” works. Ghazali is the great islamic scientist who devoted his life to deepen in the morality of the Qur'an and to tell people about the beauty of İslam religion. The work “Jawahir-al Qur'an wa duraruh” aims to open the subtleties, secrets and features of theQur'an.